# "Xalq Əmanəti"nin xalqımıza daha bir ərməğanı: "Güney Azərbaycan poeziyası. Seçmələr"

**Mayın 16-da Xalq Bank "Xalq Əmanəti" layihəsi çərçivəsində 25-ci kitabını təqdim etdi. Cənubi Azərbaycan poeziyasına həsr olunmuş nəşrdə Güney Azərbaycanda doğulmuş, müxtəlif ədəbi təmayül və cərəyanları təmsil edən, XX əsrin əvvəllərindən günümüzə qədərki dövrdə yazıb-yaratmış 50 azərbaycanlı şairin fərqli mövzularda və janrlarda qələmə aldıqları seçmə şeir və poemaları, eləcə də qəzəlləri toplanıb. Müəlliflərin sırasında adını Azərbaycan ədəbiyyatı tarixinə yazmış böyük şairlərimizlə yanaşı, çağdaş dövrün istedadlı gənc ədiblərinin də isimləri var.**

Xalqımızın mədəni irsinin gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədi daşıyan "Xalq Əmanəti" layihəsi 2010-cu ildən etibarən həyata keçirilir. Layihə çərçivəsində Azərbaycan, ingilis, rus dillərində nəşr olunan kitablar ölkənin ali və orta təhsil müəssisələri, uşaq evləri və kitabxanalar, müxtəlif fondlar, dövlət müəssisələri, xarici ölkələrin Azərbaycanda və ölkəmizin xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur. Bu günədək Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, eləcə də Ələkbər Rzaquliyev, Tağı Tağıyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Şamo Abasov, Cahid Camal, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltəraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiqin və Hökumə Billurinin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin dünyaşöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görüb. "Güney Azərbaycan poeziyası. Seçmələr" kitabı həm də keşməkeşli tariximizin bədii inikasıdır.

Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Nizami Cəfərov dedi: "Cənubi Azərbaycan poeziyası 30-50-ci illərdə əsasən əruz, sonra heca vəznində, XX əsrin sonlarından isə sərbəst janrda yazılıb. "Güney Azərbaycan poeziyası. Seçmələr" kitabında məhz bu nüans nəzərə alınıb. Burada vətənpərvərlik, inqilabi, sevgi, məhəbbət ruhunda müxtəlif janrlarda yazılmış şeir nümunələrinə yer verilib".






Xalq şairi Sabir Rüstəmxanlı 700 şair arasından seçilən 50 şairin şeirlərinin toplandığı bu nəşrin o taylı, bu taylı Azərbaycan poeziyasının qiymətli nümunələrindən biri olduğunu qeyd etdi: "Anadilli məktəblərin olmadığı, uşaqların doğma dilində təhsil ala bilmədiyi, bir xalqın bu gün ana dilində yazan 700 şairi varsa və 50-nin mükəmməl ədəbiyyat nümunəsi bir kitabda toplanırsa bu, o deməkdir ki, bu xalqın gələcəyi parlaqdır. Mən bu kitabı araya-ərsəyə gətirən "Xalq Əmanəti" layihəsinin bütün komandasına dərin təşəkkürümü bildirirəm".

Sonra söz kitabın tərtibçisi Səlim Babullaoğluna verildi: "XX əsrdə Quzey Azərbaycanda yaranan poeziya folklora və klassik ədəbiyyata əsaslanaraq, əruz və heca vəznində Hüseyn Cavid, Əhməd Cavad, Səməd Vurğun, Süleyman Rüstəm kimi, sərbəst vəzndə isə bir tərəfdən Dədə Qorqud dastanlarından qidalanan, digər tərəfdən isə Uitmen-Mayakovski-Nazim Hikmət xətti ilə yeni impulslar alan Rəsul Rza kimi böyük sənətkarlar yetişdirdi. Güneydə isə Həbib Sahir, Şəhriyar, Səhənd, Həmid Nitqi, Əziz Salami, Rəsul Yunan, Şəhram Şeydayi, Dalğa Xatunoğlu və digərləri kimi, görkəmli, istedadlı şairlərimiz yazıb-yaratdılar. Onlar "farsdilli, farsmərkəzçi ədəbi-mədəni sistem"də əruz və hecada bütün məhrumiyyətlərə rəğmən Azərbaycan dilində ciddi poeziya nümunələri ortaya qoydular. Tərtib etdiyimiz kitabda vətən və yurd nisgilli, dil mücadiləsi ilə bağlı poetik mətnlər qırmızı xətlə keçir. Çünki güneyli şairlərimizin əksəriyyəti hansı mövzuda yazmağından asılı olmayaraq, daim Vətəni və dili önə çəkiblər. Qəribədir, dünyada bəlkə ikinci bir ədəbiyyat tapmaq mümkün deyil ki, həmin ədəbiyyatın təmsilçiləri dil varlığı uğrunda mübarizələrini təkcə o dildə yazmaqla deyil, həm də məzmunca bu qədər aydın ifadə edərək aparıblar. Biz də bu səbəbdən tərtib zamanı tematik bölgüyə ehtiyac duymadıq. Bakıda Güneydə yaranan ədəbiyyatımız, o cümlədən poeziya nümunələrimiz müxtəlif toplular, antologiyalar şəklində dəfələrlə nəşr olunub. Xalq Bankın "Xalq Əmanəti" layihəsi çərçivəsində işıq üzü görən "Güney Azərbaycan poeziyası. Seçmələr" kitabı bu nəşrlər arasında xüsusi yer tutur".

Kitabın digər tərtibçiləri filologiya üzrə fəlsəfə doktorları Esmira Fuad, Pərvanə Məmmədli və başqa çıxış edən ziyalılar, ədəbiyyatçılar da "Xalq Əmanəti"nin bütöv Azərbaycana ərməğanı olan "Güney Azərbaycan poeziyası. Seçmələr" kitabının tarixi əhəmiyyətindən bəhs etdilər.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**